# NAR-NAR

**Allegretto**




Gül-çiçəyi dərərəm, nar-nar,
Əlvan çələng hörərəm, nar-nar,
Hər gün səni görəndə, nar-nar,
Öz bəxtimi görərəm, nar-nar.

Dağlara gün düşəydi, nar-nar,
Demə, neçin düşəydi, nar-nar,
Bizim evin yanından, nar-nar,
Yolun hər gün düşəydi, nar-nar.

Qanadlanıb uçaydım, nar-nar,
Qəmdən uzaq qaçaydım, nar-nar,
Ürəyimi bir axşam, nar-nar,
Sevdiyimə açaydım, nar-nar.

Dostu yaddan seçəydik, nar-nar,
Buz bulaqdan içəydik, nar-nar,
Barı bizim küçədən, nar-nar,
Bir gün qoşa keçəydik, nar-nar.